həmin su axımını 0,8-1,0 l/san artırmaqla dəyişən axımla aparmalı, suyun sahədən kənara çıxmasına yol verilməməlidir.

Mürəkkəb relyefli sahələrdə yağış yağdırma, damcı üsulundan, su axımının nizamlanmasında münasib elastiki və yarım elastiki borulardan istifadə edilməlidir.

Torpaqların eroziyadan qorunmasında növbəli əkin sisteminin faydalı omlası danılmazdır. Növbəli əkin sistemində yoncanın böyük əhəmiyyəti vardır. Eroziyaya uğrayan torpaqlarda qısa dövriyyəli-pambıq-saçaqlı kök sisteminə malik olan dənli taxıl, paxlalı-və xüsusilə də pambıq yonca növbəli əkin sxemi tətbiqini tövsiyə etmək məqsədyönlüdür. Eroziya prosesi gedən torpaqlarda 3 il yonca, 3 il pambıq və digər məqsədə uyğun bitkilər becərilməlidir. Yoncalıq şumlandıqdan 2 il sonra becərilən bitkilərə əsas şum qabağı hektara 20-25 ton peyin, kasıb torpaqlarda isə onun normasını artırıb 30-40 ton/ha verilməsi səmərəlidir. Eroziyaya uğrayan torpaqlarda bitki qalıqlarının (quzapayı, kövşən və s.) sahədən kənara çıxarılması və yandırılmasına yol verilməməlidir.

Eroziyanın qarşısının alınmasında bitki qalıqlarının xırdalanıb şum altına verilməsi səmərəlidir. Torpaqların eroziyaya uğramasının qarşısının alınmasında təsirli vasitələrdən biri də kimyəvi üsuldur. Bunun üçün PQY qurğusunun köməyilə birinci vegetasiya suvarması qabağı şırımların dibinə «K-9» tipli polimer verilir. Bu polimer torpağın strukturasını yaxşılaşdırır və eroziya prosesini saxlayır və qida maddələrinin torpaqdan yuyulmasının qarşısını alır. Torpağın mailliyi 2 dərəcəyə qədər olan sahələrdə polimerdən hektara 6 kq, 2-4 dərəcə olanda 12 kq və maillik 4-6 dərəcə olduqda isə norma artırılıb hektara 24 kq polimer sərf edilir. Çoxillik elmi araşdırmalar göstərir ki, yuyulmuş torpaqlara hektara 200-250 kq mineral kübrənin verilməsi xam pambıq məhsulunu mexaniki tərkibcə yüngül, yeraltı suları dərində olan topaqlarda bitki sıxlığı 110-115 min. Sular nisbətən dayazda (3,0-3,5 m) olan torpaqlarda bitki sıxlığı 95-100 min ədəd saxlamaqla birinci halda suvarma 900-1100 ha/m^3 normada tam tarla su tutumu aşağı həddə görə 70-70-65%, ikinci halda isə zəif şorlaşmış və kollektor-dren şəbəkəsi olan torpaqlarda 1000-1200 ha/m^3 normada və 70-75-65% rejimdə saxlamaqla suvarma arası müddəti qısaltmaq məqsədə uyğundur. Yuxarıda göstərilən tədbirlərin təsərrüfatlarda tədbiqi torpaqların eroziyadan qorunmasında, münbitliyin saxlanıb, bərpa olunmasında, artırılmasında pambıq və digər cərgəarası becərilən kənd təsərrüfatı bitkilərindən yüksək məhsul yetişdirilməsində fermerlərə, digər torpaq sahələrinə kömək edə bilər.

DUTMA YEMIŞ SORTLARI, DUTMA ÜSULUNUN MAHIYYƏTI. ABŞERONDA BU ÜSULUN TƏTBIQI

S.R. HƏSƏNOV, biologiya elmləri namizədi, Ç. T. NAMAZOVA, elmi işçi
Azərbaycan MEA Genetik Ehtiyatlar İnstitutu

Yemiş isti sevən bitkidir, kontinental iqlim şəraitinə malik olan bölgələrdə açıq və qorunan sahələrdə geniş becərilir. Quru iqlim şəraiti olan yerlərdə yüksək şəkərli və dadlı olur. Yemiş bitkisinin yaxşı inkişafı üçün normal temperatura 25-30 ^{0}S-dir. Temperaturanın 12-15 ^{0}S-ə düşməsi, bitkilərdə inkişafı dayandırır, çiçəklər tökülür. Bu bitki işığa və rütubətə qarşı tələbkardır. Eyni zamanda quraqlığa qarşı da davamlıdır. Quraqlıq zamanı meyvələr nisbətən balaca və şirin olur. Yemiş bitkisi yumşaq və münbit torpaqlara qarşı da tələbkardır. Bitkilərin gövdələri lian formasında olur uzunluqları 2-3-m-ə çatır, yarpaqları iridir, böyrək şəkilli və ürək şəkillidir, növbə ilə düzülür. Çiçəkləri iridir, sarı rənglidir və bir cinslidir. Həşaratlarla tozlanır. Meyvələri şarşəkilli, ellipsvari, silindrik, yastılaşmış, uzunsov formalarda olub çoxtoxumludur. Çəkisi 0,2-20 kq olur.

Yemişin meyvələrinin ləti kartof rəngli, ağ, çəhrayı, müxtəlif intensivli yaşıl rənglərdə olur. Bəzi sortlarının meyvələri yeyilən

zaman ağızda xırçıldayır, bəziləri isə sanki əriyir. Yetişən zaman meyvə saplağından asanlıqla ayrılır (1;3).

Yemişin sortları aşağıdakı sort tiplərinə ayrılır. Qərbi Avropa yemişləri-Kontaluplar, tez yetişən rus yemişləri, Orta Asiya yay yemişləri-Xəndələkilər, Orta Asiya xırtıldayan lətli yay yemişləri, Bərk lətli rus yemişləri, Aralıq dəniz sahili- Kəssaba yemişləri, Zərd qrupu-payız qış cənub yemişləri. "Dutma" sortları da Zərd qrupuna aiddir. Bu qrupa gecyetişən, çox saxlanan və iri meyvəsi olan sortlar daxildir. Onların rəngi əsasən narıncı və sarı rəngdə olur. Zərd fars dilində sarı deməkdir. Bu qrupa aid olan yemişlər Abşeron, Kürdəmir, Gəncə-Qazax və Naxçıvan bölgələrində becərilir.

Naxçıvan MR-də yemişin "Dutma" üsulu ilə becərilməsi qədim tarixə malikdir. Bu üsul başqalarından xüsusi aqrotexnikaya malik olması ilə fərqlənir. Bu bölgədə "Dutma" üsulu ilə bücərilməkdən ötrü Zərd və başqa qruplara aid müxtəlif rəngli və müxtəlif formalı yemiş sortları yaradılmışdır. Bunlara "Göy . gülabi", "Həmkar", "Miəndab", "Ağnabat", "Qələmqaş", "Sineyvaz", "Ələmdar", "Qocafəndi", "Həsənbəyi", "Corat", "Yaşar" sortları daxildir (1;2).

Yemişin ilk dəfə "Dutma" üsulu ilə becərilməsi Naxçıvanda tətbiq olunmuşdur. Bu üsulla gec yetişən və yaxşı saxlanılan sortlar becərilir və yemiş milçəklərinə qarşı mübarizə xüsusi formada həyata keçirilir. Məhz bu sortlar da Dutma sortları adlandırılır. Bu söz tutma, istehsal etmə mənasını verir. Bu becərmə formasının üsulu aşağıdakı kimidir. Becəriləcək sortlar May ayının 1-ci ongünlüyündə əkilir. Alınmış cücərtilər seyrəldilir, hər yuvada 1 bitki saxlanılır. Əmələ gələn meyvəciklər bitkinin dibinə yaxın yarpaqlara bükülərək quma basdırılır. Meyvələr böyüyüb müəyyən ölçüyə çatdıqdan sonra qumdan çıxardılır, 2-3 gündən bir o üz, bu üzü üstə çevrilir. Bu yolla yemişlər yemiş milçəyindən qorunur. "Dutma" üsulu ilə becərilmə zamanı bitkilərin üzərində 1-2 meyvə saxlanılır. Meyvələrin sayı 2-dən çox olduqda balaca olur (1).

Dutma üsulu 2005-ci ildə Genetik Ehtiyatlar İnstitutunun təcrübə sahəsində bizim tərəfimizdən sınaqdan keçirilmişdir.

Təcrübə aparmaq məqsədilə Naxçıvan MR-nın qədim "Sineyvaz" sortundan istifadə edilmişdir. Bu sortun bitkilərinin baş tağının orta uzunluğu 1,5 m-dir, nazik gövdələrə malikdir. Yarpaq ayaları 5 künclü olub orta ölçüləri 13-17 sm-dir. Yarpaqların kənarları tamdır. Meyvələrin formaları yumurtavaridir, orta çəkisi 3 kq –a yaxındır, səthləri sığallı, zəif çopurdur. Başdan-başa qəhvəyi yaşıl zolaqlı naxışları var. Meyvə fonunun rəngi sarı-yaşıldır. Meyvə qabığı bərkdir, qalındır, lətli hissəsi yaşılımtıl-ağ rəngdədir, çox şirindir, ağızda xırçıldayır, vanil dadı verir. Toxumları iri uzunsov-ovaldır, rəngi qəhvəyi-sarıdır. Gec yetişən sortdur, vegetasiya dövrü 110-120 gündür. Yemiş milçəyinə, quraqlığa, saxlanmaya və daşımağa davamlıdır. Unlu şeh xəstəliyinə zəif davamlıdır.

Bu yemiş sortu Genetik Ehtiyatlar İnstitutunun təcrübə sahəsində may ayında əkilmiş, aqrotexniki tədbirlər yerinə yetirilmişdir. Yenicə əmələ gəlmiş meyvələr tağın üzərindəki iri yarpağa bükülərək quma basdırılmışdır. Hər bitkinin üzərində iki meyvə saxlanılmışdır. Quma bastırılmış meyvələr müəyyən ölçüyə çatdıqdan sonra, 2-3 gündən bir o üz, bu üzü üstə çevrilmişdir. Bu meyvələrin günəş şüaları ilə hər tərəfdən eyni dərəcədə qızmasına səbəb olur. Bu üsulla becərilən meyvələr həm yemiş milçəyindən qorunur, həm dadına, həm də keyfiyyətinə görə açıq şəkildə becərilənlərdən fərqlənir. Təcrübə göstərir ki, "Dutma" üsulu ilə Dutma yemiş sortlarının Abşeronda müvəffəqiyyətlə becərilməsi mümkündür.

ƏDƏBİYYAT

1. Əliyev Ş.A. "Tərəvəzçilik" Bakı Dövlət Universiteti nəşriyyatı, 1997 s. 100-104. **2.** Qovun növləri və "Zərd" qrupuna aid sortların "Dutma" üsulu ilə Naxçıvan MR-də becərilməsi. Naxçıvan Elmi- tədqiqat bazasının əsərləri. Naxçıvan-2002 s. 70-73. **3.** Буренин В.И. Основны и малораспространенные овощные растения. Москва ФГНУ «Росинформагротех» 2003. с. 188-190